# AZƏRBAYCAN RESPUBLİKASI
# TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN PEDAQOJİ UNİVERSİTETİ
# XÜSUSİ TƏHSİL KAFEDRASI
# (P A S P O R T )

**Bakı – 2024/2025**

## MÜNDƏRİCAT

**1. Ön söz** ........ 3

**2. Kafedranın tarixi** ........ 3

**4. Kafedra haqında ümumi məlumat** ........ 7

**5. Kafedranin istifadə etdiyi tədris modeli** ........ 8

**6. Müəllim heyətinin tərkibi və ümumi dərs yükü** ........ 9

**7. Kafedranın tədris fəaliyyəti haqqında məlumat** ........ 9

7.1. Tədris olunan fənlər barəsində qısa təsvir ........ 10

7.3. Kafedranın tədris etdiyi əsas fənlərin proqram hazırlığı barədə məlumat ........ 12

7.4. Kafedranın tədris etdiyi əsas fənlərin dərslik, dərs vəsaiti və metodik vəsaitləri barədə məlumat ........ 17

**8. Kafedra əməkdaşlarının elmi yaradıcılıq fəaliyyəti haqqında məlumat** ........ **Error! Bookmark not defined.**

8.1. “Korreksiyaedici təlim” kafedrasının 2019-2020-ci illər üçün elmi-tədqiqat işinin planı ........ 22

8.2. Kafedranın doktorant və dissertantları ........ 27

8.3. Kafedra əməkdaşlarının elmi məqalələri və çap işləri

**9. KADR POTENSİALININ MÖHKƏMLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ İŞ, KAFEDRANIN KADR BANKI HAQQINDA PLAN**

63

## 1. Ön söz

Son illərdə təhsil siyasətində baş verən pozitiv tendensiyalar Azərbaycanın artıq keçid mərhələsinin stabillik fazasına doğru hərəkət etdiyini göstərir. Bu, müasir təhsil siyasəti və idarəetmə prinsiplərinin düzgün təşkili vasitəsilə həyata keçirilir. Yeni təhsil islahatları Azərbaycan təhsilində xüsusi yer tutan Sağlamlığı məhdud olan şəxslərin təlim –tərbiyə,korreksiya,sosiallaşma məsələlərində də struktur dəyişikliklərin,eləcə də korreksiyaedici təlim üzrə peşəkar,savadlı mütəxəssislərinin hazırlanmasını tələb edir. Respublikamızda korreksiyaedici təlimin yeni standart və strategiyaların işlənməsində beynəxalq təcrübə və mütəxəssislərin hazırladığı tövsiyyələr də mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, “Korreksiyaedici təlim” ixtisası üzrə kafedra aşağıdakı məsələlərin həyata keçirilməsi istiqamətində məqsədəyönlü iş aparır :

- Sağlamlıq imkanları məhdud şəxslər kateqoriyasının müəyyənləşdirilməsi;
- Milli qanunvercilikdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və digər hüquqları;
- Təhsildə xüsusi ehtiyacların aşkarlanması;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün “səmərəli” təhsilin standartları,hədəf və strategiyaları;
- Sağlamlıq imkanları məhdud şəxslərin aşkarlanmasl və diaqnostik qiymətləndirilməsi ;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və digər xidmətlər;
- Xüsusi təhsiliin mərhələləri;
- Xüsusi təhsilin idarə olunması və kadr hazırlığı;
- Təhsilin komponentlərini icra edəcək müəllimlərin peşəkarlıq standartları və etik normaları

## Kafedranın tarixi

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xüsusi təhsil kafedrasının spesifik profilini nəzərə alaraq Sağlamlıq imkanları məhdud uşaqların öyrənilməsində, bu sahədə kadr hazırlığında əvəzsiz rolu vardır.

“Korreksiyaedici təlim” kafedrası 9 oktyabr 2015-ci il tarixdə ADPU-nin Elmi Şurasının qərarı ilə (pr.2) yaradılmış və 3/305 nömrəli 29 oktyabr 2015-ci il tarixli əmri ilə fəaliyyətə başlamışdır. Korreksiyaedici təlim kafedrası 2015-ci ilin dekabr ayında Məktəbəqədər təhsil, Psixoloji xidmət, Korreksiyaedici təlim fakültəsinin nəzdində müstəqil kafedra kimi fəaliyyət göstərir.

Kafedrada bakalavr hazırlığı ilə yanaşı, həm də magistr hazırlığı aparılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti rektorunun əmri ilə pedaqoji elmlər doktoru, dosent Nailə Tofiq qızı Hüseynova 2015 – 2022-ci illərdə “Korreksiyaedici təlim” kafedrasının müdiri təyin edilmiş. 2023-cü ildən dos. Simnarə Nadir qızı Heydərova Xüsusi təhsil kafedrasına rəhbərlik etməyə başlamışdır.

Kafedranın təşkilində və inkişaf ında böyük rolu olan dosent Nailə Tofiq qızı Hüseynova 1972 –ci il sentyabrın 19-da Bakı şəhərində anadan olub. 1993-cü ildə V.Lenin adına Moskva Dövlət Pedaqoji Universiteti defektologiya və loqopediya ixtisası

üzrə bitirib. N.T.Hüseynova 2003-cü il oktyabr ayında ADPU-nun nəzdnində fəaliyyət göstərən (Xüsusi pedaqogika -13.00.03) dissertasiya şurasında ped.üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün " Причины возникновения общего недоразвития речи у детей дошкольного возроста и пути их устранения" adlı dissertasiya işini müdafiə etmiş və 27.01.2004 –cü ildə təsdiqini almişdir.1993-cü ildə 17 saylı nitqi qüsurlu körpələr evi-uşaq bağçasında loqoped vəzifəsində çalışmışdır. 1996-cı ildən ADPU-nun "Ümumi psixologiya" kafedrasında müəllim, sonra isə baş müəllim vəzifəsində çalışmışdır. 2015- ci ilin noyabr ayından "Korreksiyaedici təlim" kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. 2015-ci ilindekabr ayından hal-hazıra kimi "Korreksiyaedici təlim" kafedrasının müdiri vəzifəsində çalışır. Nailə Tofiq qızı Hüseynova elmi-tədqiqat sahəsində də fəaliyyətini davam etdirərək, 60 –dan çox elmi əsərin müəllifidir. ADPU-nun test komissiyasının psixologiya və korreksiyaedici təlim üzrə ekspertidir. Magistratura üzrə dissertasiya şurasının, xüsusi pedaqogika üzrə ixtisaslaşmış müdafiə şurasının və universitet elmi metodik şuranın üzvüdür. 2009-2011 ci illər.TN və MT vəTYM ADPU-nun Məktəbəqədər təhsil fakültəsi ilə birgə keçirdiyi "İnklüziv təhsil" layihəsi üzrə işçi qrupun üzvüAvropa İttifaqının "Azərbaycanda vətəndaş cəmiyyətinin iştirakı ilə təhsil sisteminin müasirləşdirilməsi və inklüziv təhsilin tətbiqi" proqramı çərçivəsində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi və UNİCEF tərəfindən həyata keçirilən "Azərbaycanda əliliyi olan uşaqlar üçün inkluziv keyfiyyətli təhsilin genişləndirilməsi" layihəsi üzrə ADPU-nun işçi qrupunun üzvüdür.

Heydərova Simnarə Nadir qızı 1969-cu ildə Qərbi Azərbaycanın Qafan şəhərində anadan olub. O, 1986-cı ildə Qafan şəhərinin 8№-li orta məktəbini bitirib. Ali təhsillidir.1995-ci illərdə N.Tusi adına Pedaqoji İnstitutunun Məktəbəqədər pedoqogika və psixologiya fakultəsində təhsil almışdır.2005-ci ildə Heydərova Simnarə Nadir qızı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Yaş və pedaqoji psixologiya(indiki Pedaqoji psixologiya) kafedrasında baş laborant vəzifəsinə təyin edilib. S.N.Heydərova ADPU-da baş laborant işlədiyi dövrdə uşaq psixologiyası ilə dərindən maraqlanmış və bu mövzuda bir çox məqalələr hazırlamışdır.

2006-cı ildə ADPU-da müəllim vəzifəsinə təyin edilibvə hal-hazırda ADPU-nun Pedaqoji psixologiya fakedrasında fəaliyyətini davam etdirməkdədir. S.Heydərova daima öz elmi fəaliyyətini davam etdirmişdir. Onun "Azərbaycan milli mənəvi dəyərlərinin sosial psixoloji mahiyyəti" adlı dərs vəsaiti 2006-ci ildı Bakıda nəşr olunub.

S.N.Heydərova 2006-cı ildə ADPU-nun dissertantı olub və " Uşaq şəxsiyyətinin formalaşmasında Azərbaycan xalq nağılları və atalar sözlərinin rolu" adlı dissertasiya mövzusunu müdafiyə edərək 20 fevral 2013-cü ildə Psixologiya elmləri üzrə fəlsəfə doktoru adını almışdır. 24 noyabr 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dossent elmi adı verilmiş və Pedaqoji psixologiya kafedrasının dossenti vəzifəsində çalışır.

Məktəbəqədər təhsil fakültəsi şurasının və Məkətbəqədər təhsil fakutəsi üzrə Dövlət imtahan komissiyasının üzvüdür. S.N.Heydərova həmçinin "Yeni Azərbayca Partiyası"nın üzvüdür. "Xocalı Soyqırımını Tanıtma" ictimai birliyi tərəfindən pedaqoji sahədə səmərəli fəaliyyətinə, gənc nəslin təlim-tərbiyəsində qazandığı uğurlara gorə fəxri fərmanla təltif edilmişdir.

2019-cu ildə ADPU-da struktur dəyişikliyi ilə bağlı olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 9 iyul 2019-cu il tarixli iclasın qərarı ilə 02/40-k əmrinə əsasən Korreksiyaedici təlim kafedrasının adı Xüsusi təhsil ilə əvəz olunmuşdur.

Xüsusi təhsil kafedrası gənc kafedradır. Ali təhsilin bakalavriat və magistratura pillələrində “Korreksiyaedici təlim” və ”Korreksiyaedici təlimin metodikası və metodologiyası ” istiqaməti üzrə əsas aparıcı ixtisas kafedrasıdır.

2015-ci ildən başlayaraq kafedranın elmi potensialı artır və hal-hazırda Xüsusi təhsil kafedrasında 22 nəfər professor-müəllim heyəti və 3 laborant (2 nəfər analıq məzuniyyətində) faəliyyət göstərir.

Kafedranın təşkilində və inkişafında böyük rolu olan dosent Nailə Tofiq qızı Hüseynova 1972 –ci il sentyabrın 19-da Bakı şəhərində anadan olub. 1993-cü ildə V.Lenin adına Moskva Dövlət Pedaqoji Universiteti defektologiya və loqopediya ixtisası üzrə bitirib. N.T.Hüseynova 2003-cü il oktyabr ayında ADPU-nun nəzdnində fəaliyyət göstərən (Xüsusi pedaqogika -13.00.03) dissertasiya şurasında ped.üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün “ Причины возникновения общего недоразвития речи у детей дошкольного возроста и пути их устранения” adlı dissertasiya işini müdafiə etmiş və 27.01.2004 –cü ildə təsdiqini almişdir.1993-cü ildə 17 saylı nitqi qüsurlu körpələr evi-uşaq bağçasında loqoped vəzifəsində çalışmışdır. 1996-cı ildən ADPU-nun “Ümumi psixologiya” kafedrasında müəllim, sonra isə baş müəllim vəzifəsində çalışmışdır. 2015- ci ilin noyabr ayından “Korreksiyaedici təlim” kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. 2015-ci ilindekabr ayından hal-hazıra kimi “Korreksiyaedici təlim” kafedrasının müdiri vəzifəsində çalışır. Nailə Tofiq qızı Hüseynova elmi-tədqiqat sahəsində də fəaliyyətini davam etdirərək, 60 –dan çox elmi əsərin müəllifidir. ADPU-nun test komissiyasının psixologiya və korreksiyaedici təlim üzrə ekspertidir. Magistratura üzrə dissertasiya şurasının, xüsusi pedaqogika üzrə ixtisaslaşmış müdafiə şurasının və universitet elmi metodik şuranın üzvüdür. 2009-2011 ci illər.TN və MT vəTYM ADPU-nun Məktəbəqədər təhsil fakültəsi ilə birgə keçirdiyi “İnklüziv təhsil” layihəsi üzrə işçi qrupun üzvüAvropa İttifaqının “Azərbaycanda vətəndaş cəmiyyətinin iştirakı ilə təhsil sisteminin müasirləşdirilməsi və inklüziv təhsilin tətbiqi” proqramı çərçivəsində Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi tərəfindən həyata keçirilən “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi və UNİCEF tərəfindən həyata keçirilən “Azərbaycanda əliliyi olan uşaqlar üçün inkluziv keyfiyyətli təhsilin genişləndirilməsi” layihəsi üzrə ADPU-nun işçi qrupunun üzvüdür.

Kafedranın əməkdaşı dos.T.H.Ağayeva 1987-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək “Filologiya elmləri namizədi” elmi dərəcəsi almışdır.2006 – cı il tarixdə kar uşaqların təlim –tərbiyəsində göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Fəxri Fərmanı ilə təltif edilmişdir.
Dos.S.R.Aslanova Moskva Dövlət Pedaqoji Universitetinin defektologiya fakültəsinin loqopediya şöbəsinə bitirmiş, 2001-ci ildə həmin universitetin “Показатели неплавности речи у детей дошкольного возраста,как фактор риска возникновения заикания” mövzusunda dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib pedaqogika üzrə fəlsəfə doktoru adına layiq görülmüşdür.
Ped.ü.f.d.M.Ş.Məlikov 1999-cu ildə “Yuxarı sinif şagirdlərinin özünü tərbiyəsi üzrə işin sistemi” adlı namizədlik dissertasiyasını müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru adına layiq görülmüşdür.

Hazırda kafedrada yüksək elmi potensiala malık müəllimlər çalışır. dos.N.T.Hüseynova , dos.T.H.Ağayeva, dos.S.R.Aslanova, S.A.Abasova,T.Ə.Şahvələdli Qədimova, ped.ü.f.d.M.Ş.Məlikov, A.A.Mürsəlova, Z.C.Məmmədova, S.N.İsgəndərova, G.Ə.Allahverdiyeva, A.A.İsrəfilova, S.S.Bəşirova , E.Kazımova, o cümlədən baş laborant A.Ş.Məmmədova və laborant M.N.Abadullayeva.

Hazırda Xüsusi təhsil kafedrasında ali təhsilin hər 3 səviyyəsi –bakalavr, magistratura və doktorantura üzrə təhsil proqarmları həyata keçirilir.

2013-cü ildə Magistratura və doktorantura şöbəsində (060116) "Korreksiyaedici təlimin metodikası və metodologiyası" ixtisaslaşması üzrə "Korreksiyaedici təlim" ixtisasına ilk dəfə 3 magistrant qəbul olmuş, 46 nəfər məzun olunmuş, hal-hazırda azərbaycan bölməsində 19 nəfər, rus bölməsində 1nəfər magistrant təhsil alır.

2017-ci ildə Magistratura və doktorantura şöbəsinə (5805.01) "Korreksiya pedaqogikası" ixtisasına üzrə elmlər doktoru proqramı üzrə 1nəfər, fəlsəfə doktoru proqramı üzrə 1 nəfər dissertant, 2018-ci ildə fəlsəfə doktoru proqramı üzrə 2 nəfər dissertant və fəlsəfə doktoru proqramı üzrə 1nəfər qiyabi doktorant qəbul olunmuşdur.

Kafedra əməkdaşlarının elmi fəaliyyəti 2 istiqamətdə həyata keçirir.1) Xüsusi təhsil təkmilləşdirilməsi, 2) Xüsusi təhsil sahəsində aparılan islahatların dəstəklənməsi və həyata keçirilməsi. Aparılan elmi – tədqiqat işlərinin nəticələri respublikada və bir sıra xarici ölkələrin nüfuzlu nəşrlərində çap olunmuşdur.
Kafedra fəaliyyət göstərdiyi müddətdə kafedra üzvləri xüsusi təhsilin mühüm problemlərinə dair tədqiqatlar aparmış 5 dərslik , 3 dərs vəsaiti, 2 metodik vəsait, 2 monoqrafiya, 19 proqram nəşr etdirmişlər. Dos.N.T.Hüseynovanın "Loqopediya" (2018), "Xüsusi psixologiya" (2018), "İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası" (2017), "Humanist pedaqogikanın aktual məsələləri" (2018), Oliqofrenopedaqogika (2023), Koxlear implantasiyadan sonra korreksiya işinin sistemi (2023), Ped.ü.f.d.M.Ş.Məlikovun "Xüsusi pedaqogikanın müasir problemləri" dos.T.H.Ağayevanın "Görmə funksiyasının pozulmaları və onların psixokorreskiyası" ( 2017), "Eşitmə qüsurlu uşaqların psixokorreksiyası" (2015), "Kar uşaqlarda tələffüz vərdişlərinin formalaşdırılması" (2018), Korreksiya pedaqogikası (2021), dos.T.H.Ağayeva və b\m. A.A.Mürsəlova ilə birlikdə tərtib etdikləri "Orta məktəb şagirdlərində nitq çatışmazlıqları və onların aradan qaldırılması yolları"(2024), dos.T.H.Ağayeva və G.Ə.Allahverdiyeva Mürəkkəb inkişaf pozulması olan uşaqların korreksiya-inkişafetdirici, reabilitasiya və adaptasiya işinin xüsusiyyətləri, Korreksiyaedici xidmətin tarix və metodologiyası (20221), Dos.S.R.Aslanovanın "Eşitmə orqanlarının anatomiyası, fiziologiyası və patofiziologiyası" (2019), Eşitmə pozulması olan uşaqlarda təfəkkürün inkişaf xüsusiyyətləri adlı S.N.İsgəndərovanın Dayaq-hərəkət aparatında pozulmaları olan uşaqların sosial reabilitasiyası (2023) adlı monoqrafiya, dərslik, dərs vəsaiti, metodik vəsaitlər müəllim və tələbələrin müraciət etdiyi mənbələrə çevrilmişdir.

Kafedranın fəaliyyəti müddətində 200-dən çox elmi məqalələri çap olunmuşdur. Bu məqalələrin bir qismi İmpakt faktorlu jurnallarda dərc olunmuşdur. Xüsusi təhsil kafedrasının əməkdaşları MPDU-nin Dərbənd filiali ilə əməkdaşlıq edərək, hər il onların dövrü beynəlxalq elmi jurnallarında məqalə çap etdirirlər.

Xüsusi təhsil kafedrasının profilinə uyğun Məktəbəqədər təhsil kafedrasında 2 "İnklüziv təhsil" laboratoriyası fəaliyyət göstərir. 1. Müasir təlim və tədrisə yardım mərzəzinin ARTN-nin birgə layihəsi əsasında təkil olunan "Müəllim hazırlığı sistemində İnklüziv təhsilin inkişafı" inklüziv laboratoriyası və üzrə 2015-ci ildə İnklüziv təhsil layihəsi çərçivəsində İnklüziv təhsil laboratoriyası, Polşa səfirliyinin təşəbbüsü ilə autizmli uşaqların reabilitasiyası ilə bağlı Universitetin nəzdində "Uşaq inkişaf mərkəzi" laboratoriyası

## 3.Kafedraya rəhbərlik

Azərbaycan Dövlət Pedaqoji Universiteti rektorunun əmri ilə pedaqogika üzrə elmlər doktoru, dosent Nailə Tofiq qızı Hüseynova 2015 – ci ilin dekabr ayından "Korreksiyaedici təlim" kafedrasının müdiri təyin edilmiş. 2023-cü ildə Xüsusi təhsil kafedrasına dos.Simnarə Nadir qızı Heydərova rəhbərlik etməyə başlamışdır.

## 4.Kafedra haqqında ümumi məlumat

"Xüsusi təhsil" kafedrası gənc kafedradır. "Xüsusi təhsil" kafedrası ali təhsilin bakalavriat və magistratura pillələrində "Korreksiyaedici təlim" və " Korreksiyaedici təlimin metodikası və metodologiyası " istiqaməti üzrə əsas aparıcı ixtisas kafedrasıdır. Kafedra xüsusi təhsil üzrə ehtiyacı olan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bir çox sahələri əhatə edən 30-dan artıq müxtəlif fənnin tədrisini həyata keçirir. Kafedranın tədris etdiyi fənlər, yüksək ixtisaslı mütəxəssislər tərəfindən azərbaycan, rus və ingilis dillərində tədris olunur.

Tədris olunan fənlər üzrə tədrisin keyfiyyətini artırmaq, tədris prossesinin səmərəliliyini yüksəltmək, o cümlədən, tələbələrimizin müxtəlif sahələr üzrə nəzəri biliklərlə yanaşı, həm də təcrübi vərdişlərini artırmaq məqsədi ilə mütəmadi olaraq tanınmış mütəxəssislərinin iştirakı ilə elmi seminarlar keçirilərək onlara təhsil müddətində öyrənmiş olduqları biliklərin real həyatda istifadəsi öyrədilir. Bu mənada tədris metodikamızda nəzəriyyə və praktika arasında qurmağa çalışdığımız körpü və tarazlıq kafedramızın qeyd edilməli ən önəmli özəlliyidir.

| Missiyamız | Vizyonumuz |
|---|---|
| ***ADPU Xüsusi təhsil kafedrası olaraq missiyamız tələbələrimizə xüsusi təhsil sahəsində ən yaxşı təhsili və ən müasir bilikləri verərək məzunlarımızın həm ölkə daxilində həm də beynəlxalq səviyyədə olan kariyera imkanlarından faydalanmaları üçün lazımi bilik və qabiliyyətlər əldə etmələrini təmin etmək və rəqabətə davamlı təhsil bazası yaratmaqdır.*** | ***ADPU Xüsusi təhsil kafedrasının vizionu ölkə və regional səviyyədə tanınan, xüsusi təhsil müəssisələri ilə güclü əlaqələr qurub ən çox iş və kariyera imkanları yaradan və yüksək təhsil standartına sahib olan kafedra olmaqdır.*** |

**5.KAFEDRANIN İSTİFADƏ ETDİYİ TƏDRİS MODEL**“Xüsusi təhsil” kafedrasının təklif etdiyi tədris modeli aşağıdakı diaqramda öz əksini tapmışdır. Modelin əsas fəlsəfəsini ilkin bazaya(əsasa) əsaslanan “mərhələli inkişaf” prinsipi tutur. Diaqramda bu öz əksini çox aydın şəkildə tapmışdır. Beləki, birinci kursda tələbələrə ümumi fənlərlə yanaşı, korreksiyaedici təlim ixtisasına giriş kimi 2 fənn (Xüsusi təhsil və s.f.Xüsusi psixologiya) öyrədilir, II kursda tələbələr ixtisasa girişə davam olaraq 9 fənn və, III kursda korreksiyaedici təlim üzrə biliklərin möhkəmləndirilməsi 10 fənləri tədris edilməklə yanaşı eyni zamanda digər fakültələrdə İnkülziv təhsil və fərdiləşdirilmiş təlim fənni (biologiya müəllimliyi, fransız dili müəllimliyi, ingilis dili müəllimliyi, azərbaycan




dili və ədəbiyyat müəllimliyi, coğrafiya müəllimliyi və kimya müəllimliyi),həm də ixtisas üzrə tədris təcrübəsinə yiyələnirlər. IV kursda “İnklüziv təhsil”,”Imkanlari məhdud uşaqların fiziki tərbiyəsinin əsasları”, Seçmə fənn VI blok ,kimi ixtisaslaşma fənləri öyrənilir.

## 6.Müəllim heyətinin tərkibi və ümumi dərs yükü

Kafedranın 23 əməkdaşı var. 1 nəfər elmlər doktoru, 6 fəlsəfə doktoru (4 dosent, 3 baş müəllim) və 16 müəllim fəaliyyət göstərir.(onlarda 1 nəfəri elmlər doktoru N.T.Hüseynova, 4 dosent: S.N.Heydərova, T.H.Ağayeva, S.R.Aslanova, ped.ü.f.d., baş müəllim S.N.İsgəndərova, baş müəllim S.A.Abasova, Z.C.Məmmədova, 16 nəfər müəllim: T.Ə.Şahvələdli, A.A.Mürsələva, , S.S.Başirova, A.A.İsrəfilova, G.Ə.Allahverdiyeva, Ş.E.Kazımova, G.N.Bədəlzadə, S.N.Əkbərova, A.R.Ələkbərova, K.Qurbanova, S. Məhərrəmova, Məmmədova Lalə, İmanova Lalə, Həsənova Bəyim, Yusifzadə Məlahət, Axundova Məngulə ). Kafedranın geniş perspektivləri vardır. Doktorant və dissertantlar müdafiə ərəfəsindədirlər.

**Ştat cədvəli (Proffessor-müəllim heyətinin tərkibi)**

- Ştat müəllimləri – 26 nəfər
- Y/ştat - 8 nəfər
- Saat hesabı 3 nəfər

**Kafedranın ümumi dərs yükü**

- 16830 saat
- saathesabı- 4765 saat
- ştat - 10266 saat

## 7.Kafedranın tədris fəaliyyəti haqqında məlumat

Ümumi dərs yükü üzrə: 15031

Bakalavr – 72 %

Magistr – 28%

**8.”Xüsusi təhsil ” kafedrasının kataloqu**

__**Tədris olunan fənlər barəsində qısa məlumat.**__

1. **Loqopediya .** Bu fənn loqopediyanın bir elm kimi formalaşması tarixi və nitqi qüsurları haqqında nəzəri biliklər verməklə yanaşı, həm də nitq fəaliyyətinin müxtəlif pozulmaları loqopedik işin təşkili məsələlərini əhatə edir.
2. **Korreksiya pedaqogikası.** Xüsusi təhsil haqqında fəndir. Bu fənnin tədrisi zamanı, xüsusi təhsilin mahiyyəti, metod, prinsip və metodoloji əsasları, onun mərhələləri, xüsusi təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər kateqoriyası, xüsusi təhsilin standart, hədəf və strategiyaları, xüsusi təhsil şəbəkələri, xüsusi təhsilin təşkili haqqında milli qanunvericilik ,xüsusi təhsilin forma və bölmələri haqqında biliklər tələbələrə verilir.
3. **Məhdud imkanli uşaqların psixologiyası.** Bu fənn məhdud imkanli uşaqlar anlayışının mahiyyətinin açıqlanması,bu kateqoriyalı uşaqların psixi inkişafının xüsusiyyətləri, idrak fəaliyyəti, emosional –iradi sahə, nitq, hərəkət, davranış və şəxsiyyət çatışmazlıqları və onların psixo korreksiyası haqqında biliklərin verilməsinə xidmət edir.
4. **İnklüziv təhsil.** Bu fənnin tədrisi zamanı tələbələr inklüziv təhsil haqqında yerli və xarici təcrübədən yararlanacaq, uğurlu modellər, inklüziv təhsildə tədbiq edilən dəyər və prisiplər, bu təhsilə cəlb olunan uşaqların beynəlxalq təsnifatı və digər məsələlər haqqında məlumat əldə edəcək.
5. **Dayaq –hərəkət aparatı pozulması olan uşaqların inkişaf xüsusiyyətləri, diaqnostikası və korreksiyası.** Fənnin tədrisi zamanı dayaq –hərəkət aparatı çatışmazlıqları olan uşaqların təsnifatı, əlamət və inkişaf xüsusiyyətləri,yaranma səbəbləri, ümumi və nitq motorikasının pozulmaları, onun fəallaşdırılması məsələləri əhatə edilir.
6. **Hiperaktiv uşaqlarda diqqətin pozulması.** Bu fənn hiperaktiv uşaqlar,onları yaradan səbəblər,diaqnostika, psixoloji, nevroloji, somatik əlamətləri, inkişafının xüsusiyyətləri:idrak fəaliyyəti,emosional –iradi,nitq,hərəkət sahə ,davranış və şəxsiyyət çatışmazlıqları,nitq və korreksiyası haqqındadır.
7. **Xüsusi pedaqogika.** Xüsusi pedaqogika, onun inkişaf tarixi, sahələri və vəzifə, metod və prinsipləri, xüsusi psixologiyanın digər elmlərlə əlaqəsi haqqında tələbələrə informasiya verilməklə yanaşı, onun mövcud aktual problemləri də tədris edilir
8. **Xüsusi psixologiya.** Xüsusi psixologiyanın inkişaf tarixi, onun sahələri, Sağlamlıq imkanları məhdud uşaqların psixi inkişafı, idrak.emosional –iradi sahə, nitq, davranış, şəxsiyyət çatışmazlıqları barədə biliklər tədris edilir.

9. **İmkanları məhdud uşaqların fiziki tərbiyəsinin əsasları.** Fiziki tərbiyə, onun elmi-nəzəri –praktik anlayışları,ənənəvi əsasları, prinsip, metod, psixoloji kriteriya və imkanları məhdud uşaqların fiziki tərbiyəsinin pedaqoji əsasları, fiziki tərbiyənin təşkili və digər məsələləri tədris edilir.

10. **XQEU-un sosial adaptasiyası.** Bu fənnin tədrisi zamanı adaptasiya anlayışı, deadaptasiya, adaptasiyanın formaları, sosial adaptasiya, hər bir sağlamlıq imkanları məhdud uşağın sosial asaptasiya işinin spesifikliyi, istiqamət və formaları, sosial adaptasiya ilə reabilitasiya işinin qarşılıqlıəlaqə və fəaliyyəti məsələləri əhatə edilir.

11. **Mürəkkəb qüsurlu uşaqların pedaqoji psixoloji xüsusiyyətləri.** Mürəkkəb qüsurlu uşaqlar, onların psixo-fiziki inkişaf xüsusiyyətləri, mürəkkəb qüsurlu uşaqların təsnifatı, təlim –tərbiyə,korreksiya –kompensasiya işnin təşkli məsələləri haqqında tələbələrə bliklər verilir.

12. **Korreksiyaedici xidmətin tarixi və metodologiyası.** Korreksiyaedici pedaqogikanın inkişaf mərhələləri, tarixi, metodo-loji əsasları, korreksiyaedici xidmətin forma və növləri, Azərbaycanda defektoloji –psixoloji –sosial xidmətin tarixi, təşkili və milli qanunvericilikdə bu xidmətin əsaslandırılması.

**13.Korreksiyaedici xidmətin müasir problemləri.** Bu fənn korreksiyaedici xidmətin aktual məsələlərinə həsr edilmişdir. Fənnin tədrisi zamanı atipik uşaq, onu yaradan səbəblər, inkişaf qüsurlarının mövcud aktual problemləri haqqında nəzəri biliklər verməklə yanaşı, həm də müxtəlif inkişaf pozulmalarının korreksiya- kompensasiya və təlim –tərbiyə işinin praktik cəhətdən yeni istiqamət, texnologiya və üsullarının araşdırılması, yeni tələblərə uyğun defektoloji-sosial-psixoloji xidmətin təşkili haqqında məsələləri əhatə edir.

**14.Sağlamlıq imkanları məhdud olan uşaqların pedaqoji diaqnostikasının əsas kriteriyaları.**
Bu fənnin tədrisi SİMU-in prdaqoji diqanostikası, onun psixoloji tibbi diaqnostikası ilə müqayisəsi və əsas kriteriyaları haqqında təlim edilir.

**15.Sağlamlıq imkanları məhdud uçaqların fiziki tərbiyəsinin əsasları.** Fiziki tərbiyə, onun elmi-nəzəri –praktik anlayışları,ənənəvi əsasları, prinsip, metod, psixoloji kriteriya və imkanları məhdud uşaqların fiziki tərbiyəsinin pedaqoji əsasları, fiziki tərbiyənin təşkili və digər məsələləri tədris edilir.

**16.Xüsusi təhsil.**Azərbaycanda xüsusi təhsil sistemi, xüsusi təhsilin şaquli və üfüqü istiqamətləri, xüsusi təhsilin formaları, Xüsusi təhsilin məzmunu, vəzifə, prinsip və metodları haqqında tələbələrə biliklər verilir.

**17.SİMU-ın idrak fəaliyyətinin qiymətləndirilməsi** fənni psixo-fiziki inkişaf pozulmalarının uşağın ümumi və psixi inkişafına, xüsusi ilə də idrak fəaliyyətinətəsiri, psixi inkişaf pozulmalarının xarakteri, diaqnozlaşdırma, korreksiya və qiymətləndirmə məsələlərini əhatə edir.

**18.Sensor pozulmalar zamanı korreksiya-inkişafetdirici işin metodikası** kursu eşitmə və görməqüsurlu uşaqlarda eşitmə və görmə analizatorlarının patologiyalarının ümumi və psixi inkişafa təsiri, inkişaf pozulmalarının xarakteri və korreksiyası-inkilşafetdirici iş metodlarını əhatə edir.
**19. AMMF (Psixodiaqnostika və psixokorreksiya)** SİMU –ın kliniki-psixi-pedaqoji müayinəsi, psixodiaqnostik işin təşkili, onun meod və prinsipləri, SİMU –ın psixi inkişaf çatışmazlıqlarının psixokorreksiya metod, metodika və istiqamətləri haqqında bəhs edir.
**20**. **Autizm spektr pozulmalarında davranışın idarə edilməsi** bu kateqoriyadan olan uşaqların psixi inkişaf şəxsiyyət və davranış pozulmaları haqqında, həmçinin davranış pozulmalarının xarakteri, idarə edilməsi və korreksiyası haqqında bəhs edən fəndir.
**21. Ali məktəblərdə korreksiya pedaqogikasının tədrisi metodikası** Ali –pedaqoji təhsil müəssisələrində xüsusi təhsilin təşkili idarə olunması haqqında məlumatlarla yanaşı korreksiya pedaqogikası onun məzmunu obyekti, predmeti, prinsip, metod və vəzifələri, SİMU –ın təlim-tərbiyə-korreksiya məsələlərini də öyrənir.
**22. Nitq pozulmalarının differensial diaqnostikası.**Nitq pozulmaları, onların oxşar digər inkişaf çatışmazlıqlarından fərqləndirilməsi metod və vasitələri haqqında bəhs edir.
**23. Koxlear implantasiyadan sonra korreksiya işinin sistemi** kar uşaqların koxlear implant əməliyyatından sonra eşitmə qavraması və dərk edilməsinin bərpası, reabilitasiya və korreksiya işindən bəhs edir.
**24._Sağlamlıq imanları məhdud uşaqların somatik və kliniki inkişafının xüsusiyyətləri -** Korreksiyaedici təlim ixtisası üzrə təhsil alan tələbələrə “Sağlamlıq imkanları məhdud uşaqların somatik və kliniki inkişafının xüsusiyyətlərin” fənni tədris olunmaqla sağlamlıq imkanları məhdud uşaqların somatik və kliniki inkişafının xüsusiyyətlərini bilmək bu uşaqlarla işləmək, diaqnostika, korreksiya inkişafetdirici işlər apara bilmək və s. bacarıqlarının formalaşması üçün vacibdir.
**25. Surdopedaqogika** Eşitmə pozulmaları olan uşaqların pedaqoji xarakteristikası, təlim-tərbiyə proseslərinin prinsip və metodları, tədris olunan fənlərin metodikaları haqqında biliklərin əldə edilməsini təmin edir.
**26. Sensor pozulmalar olan uşaqlarla pedaqoji prosesin təşkili** “Sensor pozulmalar olan uşaqlarla pedaqoji prosesin təşkili ” fənninin tədrisi tələbələrdə eşitmə və görmə qüsurlu uşaqlarda intellektual potensialı üzə cıxarmaq və şəxsiyyət kimi formalaşdırmaq imkanı yaradır. Bundan əlavə, bu kursu bitirdikdən sonra tələbələr qlobal informasiya resurslarına sərbəst cıxışəldə etmək,, nəzəri biliklərə yiyələnməklə müstəqil tədqiqat işləri aparmaq vərdişləri əldə edirlər.
**27. Oliqofrenopedaqogika** İntellektual pozulmaları olan uşaqların pedaqoji xarakteristikası, təlim-tərbiyə proseslərinin prinsip və metodları, tədris olunan fənlərin metodikaları haqqında biliklərin əldə edilməsini təmin edir.
**28**. **Tiflopedaqogika** görmə məhdudiyyəti olan insanların təhsil imkanlarının özündə ehtiva edir. Zəif görən və ya tamamilə görə

bilməyən şəxslər üçün qədim dövrlərdən etibarən müxtəlif təhsil imkanları yaradılmışdır
**29. İnklüziv təhsil və fərdiləşdirilmiş təlim** - İnklüziv təhsilin əsas mahiyyəti fiziki və ya əqli məhdudiyyəti olan insanları cəmiyyətdən təcrid etməmək, onların özünü cəmiyyətin bir parçası kimi hiss etməsinə şəraitin yaradılmasından ibarətdir. Heç kəsə sirr deyildir ki, uzun müddət valideynlər belə problemi olan övladlarını cəmiyyətdən gizlətməyə çalışmışdırlar.

## 9.Kafedranın tədris etdiyi əsas fənlərin proqram hazırlığı barədə məlumat

| S | Proqram | Müəllim | Qrif |
|---|---|---|---|
| 1 | Sağlamlıq imkanları məhdud uşaqların idrak fəaliyyətinin qiymətləndirilməsi. (magistratura səviyyəsi) | Ped.ü.f.d.. S.N.İsgəndərova | ADPU-nun Tədris Metodiki Şurasının 16 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 3 | Sağlamlıq imkanları məhdud uşaqların təhsil proqramlarının modelləşdirilməsi. (magistratura səviyyəsi) | Ped.ü.f.d.. S.N.İsgəndərova | ADPU-nun Tədris Metodiki Şurasının 16 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 4 | Sensor pozulmalar zamanı korreksiya-inkişafetdirici işin metodikası. (magistratura səviyyəsi) | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 5 | Koxlear implantasiyadan sonra korreksiya işinin sistemi (magistratura səviyyəsi) | Dos. N.T.Hüseynova | ADPU-nun Tədris Metodiki Şurasının 23 yanvar 2021 il tarixli iclasının qərarı.(prot.N -1.) |
| 6 | Hiperaktivlik və diqqətin pozulması (magistratura səviyyəsi) | Dos.S.R.Aslanova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 7 | Təlimdə çətinlikləri olan şagirdlərin korreksiya-inkişafedici işinin metodikaları (magistratura səviyyəsi) | Dos. N.T.Hüseynova | ADPU-nun Tədris Metodiki Şurasının 6 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 8 | Sağlamlıq imkanları məhdud şagirdlər üçün adaptiv mühitin təşkili (magistratura səviyyəsi) | Ped.ü.f.d. M.Ş.Məlikov | ADPU-nun Tədris Metodiki Şurasının 6 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 9 | İntellektual pozulmaları olan şəxslərin peşə hazırlığının texnologiyaları (magistratura səviyyəsi) | Ped.ü.f.d. M.Ş.Məlikov | ADPU-nun Tədris Metodiki Şurasının 6 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |

| | | | |
|---|---|---|---|
| 10 | Ali məktəblərdə korreksiya pedaqogikasının tədrisi metodikası (magistratura səviyyəsi) | Ped.ü.f.d. M.Ş.Məlikov | ADPU-nun Tədris Metodiki Şurasının 6 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 11 | Korreksiyaedici xidmətin müasir problemləri (magistratura səviyyəsi) | Ped.ü.f.d. M.Ş.Məlikov | ADPU-nun Tədris Metodiki Şurasının 6 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 12 | Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial adaptasiyası. (magistratura səviyyəsi) | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 13 | Nitq pozulmalarının differensial diaqnostikası (magistratura səviyyəsi) | Dos.S.R.Aslanova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 14 | Dayaq-hərəkət aparatının pozulmaları zamanı kompleks reabilitasiyanın istiqamətləri (magistratura səviyyəsi) | Dos.S.R.Aslanova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 15 | Korreksiyaedici xidmətin tarixi və metodologiyası | | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2022 il tarixli iclasının qərarı.(prot.N -1.) |
| 16 | Loqopediya | Dos.N.T.Hüseynova | Azərbaycan Respublikası Təhsil Nazirliyi 28.09.2021 tarixli F—462 saylı əmrə əsasən |
| 17 | İnklüziv təhsil | Dos.N.T.Hüseynova | Azərbaycan Respublikası Təhsil Nazirliyi 28.09.2021 tarixli F—462 saylı əmrə əsasən |
| 18 | Xüsusi təhsil | Dos.N.T.Hüseynova<br>Müəl. T.Ə.Şahvəlıdli Qədimova | Azərbaycan Respublikası Təhsil Nazirliyi 28.09.2021 tarixli F—462 saylı əmrə əsasən |
| 18 | Məktəbəqədər yaşlı uşaqlarla loqopedik işin təşkili | Dos.T.H.Ağayeva<br>Müəl.A.A.Mürsəlova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 20 | Riyaziyyat və onun xüsusi məktəblərdə tədrisi metodikası | Dos.T.H.Ağayeva<br>Müəl. S.S.Bəşirova | Azərbaycan Respublikası Təhsil Nazirliyi 28.09.2021 tarixli F— |

| | | | |
|---|---|---|---|
| | | | 462 saylı əmrə əsasən |
| 21 | Texnologiya və onun xüsusi məktəblərdə tədrisi metodikası | Dos. S.R.Aslanova<br>Müəl. S.E.Kazımova | Azərbaycan Respublikası Təhsil Nazirliyi 28.09.2021 tarixli F—462 saylı əmrə əsasən |
| 22 | Həyat bilgisi və onun xüsusi məktəblərdə tədrisi metodikası | Dos.T.H.Ağayeva<br>Müəl. S.S.Bəşirova | Azərbaycan Respublikası Təhsil Nazirliyi 28.09.2021 tarixli F—462 saylı əmrə əsasən |
| 23 | Xromosom patologiyalarının prenatal diaqnostikası | Dos. S.R.Aslanova<br>Müəl. S.A.Abasova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 24 | Relyef-nöqtə işarə sistemi (Brayl əlifbası) | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 07 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 25 | Koxlear implantlı uşaqların nitq reabilitasiyası | Dos. N.T.Hüseynova | ADPU-nun Tədris Metodiki Şurasının 07 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 26 | Xüsusi psixologiya | Dos. S.R.Aslanova<br>Müəl. G.Ə.Allahverdiyeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 27 | Tiflopedaqogika | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4.) |
| 28 | İnklüziv siniflərdə şagird biliklərinin qiymətləndirilmə kriteriyaları | Dos.T.H.Ağayeva<br>b\m. Z.C.Məmmədova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 29 | Dayaq-hərəkət aparatı pozulmaları olan uşaqların inkişaf xüsusiyyətləri, diaqnostikası və korreksiyası | Dos. S.R.Aslanova<br>Müəl. S.A.Abasova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 30 | Davranış pozulmaları və hiperaktivlik sindromunun diaqnostikası və korreksiyası | Dos. S.R.Aslanova<br>Müəl. S.A.Abasova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 31 | Azərbaycan dili və onun xüsusi məktəblərdə tədrisi metodikası | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 06 iyul 2021 il tarixli |

| | | | |
|---|---|---|---|
| | | | iclasının qərarı.(prot.N -4.) |
| 32 | Təsviri sənət və onun xüsusi məktəblərdə tədrisi metodikası | Dos. S.R.Aslanova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 33 | Məhdud imkanlı uşaqların psixologiyası | Dos. S.R.Aslanova<br>Müəl. A.A.İsrəfilova | ADPU-nun Tədris Metodiki Şurasının 22 dekabr 2019-cu il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 34 | Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasında art terapiyalar | Dos. S.R.Aslanova<br>Müəl. S.E.Kazımova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 35 | İnklüziv və inteqrativ tipli məktəblərdə loqopedik xidmətin təşkili | Dos.T.H.Ağayeva<br>b\m. Z.C.Məmmədova | ADPU-nun Tədris Metodiki Şurasının 16 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 36 | Xüsusi məktəblərdə şagirdlərin oxu və yazı pozulmalarının korreksiyası və profilaktikası | Dos. S.R.Aslanova<br>Müəl. G.Ə.Allahverdiyeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 37 | Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial adaptasiyası | Dos. S.R.Aslanova | ADPU-nun Tədris Metodiki Şurasının 16 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 38 | Mürəkkəb pozulmaları olan uşaqların pedaqoji-psixoloji xüsusiyyətləri | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 06 iyul 2021 il tarixli iclasının qərarı.(prot.N -4) |
| 39 | Emosional sfera və davranış pozulmaları olan uşaqların inkişaf xüsusiyyətləri | Dos. N.T.Hüseynova<br>Müəl. A.A.İsrəfilova | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 40 | Sensor pozulmaları olan uşaqların pedaqoji-psixoloji reabilitasiyası | Dos. T.H.Ağayeva<br>Müəl. S.S.Bəşirova | ADPU-nun Tədris Metodiki Şurasının 20 dekabr 2019 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 41 | Daktilologiya və jest nitqi | Dos. T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli iclasının qərarı.(prot.N -3.) |
| 42 | Surdopedaqogika | Dos. T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 16 aprel 2021 il tarixli |

| | | | |
|---|---|---|---|
| | | | iclasının qərarı.(prot.N -3.) |
| 43 | İntellektual pozulmaları olan uşaqların erkən diaqnostikası, profilaktikası və reabilitasiyası | Ped.ü.f.d. M.Ş.Məlikov | ADPU-nun Tədris Metodiki Şurasının 02 fevral 2023 il tarixli iclasının qərarı.(prot.N -2.) |
| 44 | Xüsusi pedaqogika | Dos. N.T.Hüseynova<br>Müəl. Ş.E.Kazımova | ADPU-nun Tədris Metodiki Şurasının 16 noyabr 2023 il tarixli iclasının qərarı.(prot.N -1.) |
| 45 | Intellektual pozulmaların kliniki əsasları | Dos. N.T.Hüseynova<br>Müəl. A.A.İsrəfilova | ADPU-nun Tədris Metodiki Şurasının 30 oktyabr 2023 il tarixli iclasının qərarı.(prot.N -1.) |
| 46 | Korreksiya pedaqogikası | Dos.T.H.Ağayeva | ADPU-nun Tədris Metodiki Şurasının 30 noyabr 2023 il tarixli iclasının qərarı.(prot.N -1.) |
| 47 | Oliqofrenopedaqogika | Dos. N.T.Hüseynova | ARETN-nin 07.09.2022-ci il tarixli F-537 saylı əmri. |
| 48 | Ontogenetik infişafın əsasları | Dos. N.T.Hüseynova<br>Müəl.T.Ə.Şahvələdli Qədimova | ADPU-nun Tədris Metodiki Şurasının 30 noyabr 2022 il tarixli iclasının qərarı.(prot.N -1.) |
| 49 | Inklüziv təhsil və fərdiləşdirilmiş təlim | Dos. N.T.Hüseynova<br>Müəl. Ş.E.Kazımova | ADPU-nun Tədris Metodiki Şurasının 30 oktyabr 2023 il tarixli iclasının qərarı.(prot.N -1.) |

## 10.Kafedranın tədris etdiyi əsas fənlərin dərslik, dərs vəsaiti və metodik vəsaitləri barədə məlumat

<table>
<tr><th colspan="2">Tədris planında nəzərdə tutulmuş fənlər və onun tədrisini təmin edən dərslik, dərs və tədris-metodik vəsaitlər</th><th rowspan="3">Müəllifi</th><th colspan="3">Növü</th><th rowspan="3">Qriflə nəşri və nəşr tarixi</th></tr>
<tr><th rowspan="2">Fənlərin adı</th><th rowspan="2">dərslik, dərs və tədris-metodik vəsaitər</th><th rowspan="2">dərslik</th><th rowspan="2">dərs vəsaiti</th><th rowspan="2">tədris-metodik vəsaitlər</th></tr>
<tr></tr>
</table>

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Loqopediya | 1.loqopediyanin nəzəri – praktik məsələləri<br>2.“Loqopedik atlas” | T.Ağayeva,S.Əliyeva<br><br>N.Hüseynova | | +<br><br>+ | | Bakı,ADPU,1999 200 səh.<br><br>Bakı ADPU ,2014 115 səh. |
| Eşitmə pozğunluqlarının psixokorreksiyası | Eşitmə pozğunluqlarının psixokorreksiyası | T.Ağayeva, | | + | | Bakı,ADPU , 2015 148 səh. |
| Görmə funksiyalarının pozulması və onun psixokorreksiyası | Görmə funksiyalarının pozulması və onun psixokorreksiyası | T.Ağayeva | + | | | Bakı,ADPU , 2016 188 səh. |
| Inklüziv təhsil | 1.İnklüziv təhsil - Müəlim,tərbiyə- çi,tibb işçiləri və psixoloqlar üçün metodik vəsait<br><br>2.İnkluziv təhsil sistemində ailə-məktəb, valideyn-müəllim münasi-bətləri<br>3.Inklüziv təhsil | T.Ağayeva, S.Qasımov,E.Kərimova ,E.Sultanova<br><br>T.Ağayeva, S.Qasımov,E.Kərimova ,E.Sultanova<br><br>N.Hüseynova | | +<br><br>+<br><br>+ | | Bakı, “Oka Ofset” - 2006, 167 səh.<br><br>Bakı, ”Ərgünəş”- 2006, 55 səh.<br><br>Bakı ADPU , ,2014 181 səh |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Xüsusi pedaqogika | Xüsusi pedaqogika- dərs vəsaiti | N.Hüseynova,Rüstəmova L.H | | + | | Bakı ADPU , 2008 |
| Əqli geriliyin psixokorreksiyası | Oliqofrenopsixologiya | N.Hüseynova | | | + | Bakı ADPU , 2010<br>68 səh |
| Əqli cəhətdən geri qalan uşaqların xüsusi müəssisələrə seçilməsi | Əqli cəhətdən geri qalan uşaqların pedaqoji –psixoloji məsələləri | N.Hüseynova | | | + | Bakı ADPU , 2011<br>135 səh |
| Korreksiyaediçi pedaqogika | “İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası - dərs vəsaiti | N.Hüseynova | | | | Bakı, ADPU, 2017<br>103 səh. |
| Humanist Pedaqoqikanın aktual məsələləri | Meodik vəsait | N.Hüseynova, Ş.Əliyeva, R.Əliyev, Ə.Baxşəliyev | | | + | Bakı-2018 |
| Loqopediya | Dəsrlik | N.T.Hüseynova, T.Ağayeva, | + | | | Bakı -2018 |
| Xüsusi psixologiya | Dərslik | N.T.Hüseynova,S.R.Aslanova | + | | | Bakı -2018 |
| Xüsusi pedaqogikanın müasir problemləri | Dərs vəsaiti | N.T.Hüseynova,M.Ş.Məlikov | | + | | Bakı -2018 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Eşitmə və nitq orqanlarının anatomiyası fiziologiyası və patofiziologiyası | Dərslik | S.R.Aslanova | + | | | Bakı -2019 |
| Korreksiyaedici xidmətin tarixi və metodologiyası | Dərs vəsaiti | T.Hağayeva | | + | | Bakı 2021 |
| Korreksiyaedici pedaqogika | Dərslik | T.Hağayeva | + | | | Bakı 2020 |
| Psixi inkişafın ləngiməsi olan uşaqların psixoloji-pedaqoji diaqnostikası və korreksiyası | Dərs vəsaiti | N.T.Hüseynova | | + | | Bakı 2022 |
| Oliqofrenopedaqogika | Dərslik | N.T.Hüseynova | + | | | Bakı 2023 |
| Eşitmə pozulması olan uşaqlarda təfəkkürün inkişaf xüsusiyyətləri | Dərs vəsaiti | T.H.Ağayeva<br>S.S.Bəşirova | | + | | Bakı 2023 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Dayaq-hərəkət aparatında pozulmaları olan uşaqların sosial reabilitasiyası | Monoqrafiya | S.N.İsgəndərova | | | | Bakı 2023 |
| Koxlear implantasiyadan sonra korreksiya işinin sistemi | Dərs vəsaiti | N.T.Hüseynova | | + | | Bakı 2023 |
| Orta məktəb şagirdlərində nitq çatışmazlıqları və onların aradan qaldırılması yolları | Dərs vəsaiti | A.A.Mürsəlova | | + | | Bakı 2024 |
| Mürəkkəb inkişaf pozulması olan uşaqların korreksiya-inkişafetdirici, reabilitasiya və adaptasiya işinin xüsusiyyətləri | Dərs vəsaiti | T.H.Ağayeva<br>G.Ə.Allahverdiyeva | | + | | Bakı 2024 |

## 11.Kafedra əməkdaşlarının elmi yaradıcılıq fəaliyyəti haqqında məlumat

**“Xüsusi təhsil” kafedrasının 2023- cı il və 2026-cu -cu illər üçün elmi-tədqiqat işinin planı**

Kafedra əməkdaşlarının elmi yaradıcılıq fəaliyyəti 3 istiqamətdə ( Xüsusi təhsilin təkmilləşdirilməsi, kurrikulum islahatı və korreksiyaedici təlimin müasir problemləri) həyata keçirilir.

Xüsusi təhsil kafedrası

Azərbaycan Dövlət Pedaqoji Universiteti

(elmi-tədqiqat və ya ali təhsil müəssisəsinin adı)

2023-2026-cu illər üçün elmi-tədqiqat işlərinin mövzuları

**P L A N I**

| № | Elmi istiqamətlərin, problemlərin və mövzuların adı | İcra müddəti | | Planlaşdırılan işlərin smeta dəyəri (min manatla) | İcraçı şöbə, laboratoriya və kafedra. Mövzunun elmi rəhbəri |
|---|---|---|---|---|---|
| | | Başlanğıcı (il) | Sonu (il) | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | Ümumi istiqamət: Xüsusi təhsilin təkmilləşdirilməsi<br>Ümumi problem: SİMU-ın diaqnostikası, korreksiyası, cəmiyyətə adaptasiyası və inteqrasiyası.<br>Ümumi mövzu: Xüsusi təhsilin müasir problemləri | | | | Xüsusi təhsil kafedrası |
| | | | | | |
| 1. | “Zəif eşidən uşaqlarda nitq səslərinin differensasiya bacarıqlarının inkişaf mərhələləri və səstələffüzü bacarıqlarının vərdişlərinin inkişafı üzrə işin təşkili” | 2023 | 2024 | | Dos. Ağayeva Tamilla Hüseyn qızı |
| 2 | “Zəif eşidən uşaqlarda fonematik qavrama və tələffüz vərdişlərinin çatışmazlıqlarının korreksiya metodları” | 2024 | 2025 | | |
| 3 | “Zəif eşidən uşaqlarda fonematik qavramanın çatışmazlığının oxu və yazıya yiyələnməyə təsiri” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Uşaq serebral iflici zamanı korreksiya-pedaqoji işin sistemi” | 2023 | 2024 | | Dos. Aslanova Səbinə Ramiz |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | “Uşaq serebral iflici zamanı müalicəvi bədən tərbiyəsinin xüsusiyyətləri” | 2024 | 2025 | | |
| 3 | “Serebral iflicli xəstələrdə psixopatoloji təzahürlərin xüsusiyyətləri” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Baş beynin lokal zədələnmələri zamanı ali qabıq funksiyalarının pozulma xüsusiyyətləri” | 2023 | 2024 | | b\m. Abasova Səlbi Ağamehdi |
| 2 | “Baş beynin lokal zədələnmələri zamanı ali qabıq funksiyalarının tədqiqi metodları” | 2024 | 2025 | | |
| 3 | “Körpəlik və erkən uşaqlıq dövründə psixomatik pozulmaların xüsusiyyətləri” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Rezidual üzvi genezisli psixi inkişaf ləngiməsinin kliniki variantları” | 2023 | 2024 | | Müəl. Şahvələdli Qədimova Turan Əlbəndə |
| 2 | “Müxtəlif psixopatoloji sindromlarla ağırlaşmış psixi inkişaf ləngiməsinin xarakteristikası” | 2024 | 2025 | | |
| 3 | “Psixi inkişaf ləngiməsi olan uşaqların sosial bacarıqlarının inkişafına təkan verən amillər” | 2025 | 2026 | | |
| | | | | | |
| 1. | “Artikulyasiya və tənəffüs gimnastikasının təşkili” | 2023 | 2024 | | Ped.ü.f.d. Məlikov Məlik Şixbala oğlu |
| 2 | “Sağlamlıq imkanları məhdud uşaqların readaptasiya və sosiallaşma problemlərinin həllində oyun fəaliyyətinin rolu” | 2024 | 2025 | | |
| 3 | “Kollektiv oyun fəaliyyətləri vasitəsilə sağlamlıq imkanları məhdud uşaqlarda sosial qarşılıqlı fəaliyyət bacarıqlarının formalaşdırılması” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “İntellektual problemləri olan uşaqların təhsilinin təşkili formaları” | 2023 | 2024 | | b\m. Məmmədova Zeynəb Camal qızı |
| 2 | “Koqnitiv bacarıqların uşağın inkişafına təsiri” | 2024 | 2025 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | “İnklüziv siniflərdə istedadlı şagirdlərlə işin təşkili” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Əmək təlimi prosesində sağlamlıq imkanları məhdud uşaqların nitq inkişafı üçün istifadə edilən metodikalar” | 2023 | 2024 | | Müəl. Mürsəlova Adilə Ağaməmməd qızı |
| 2 | “Sağlamlıq imkanları məhdud uşaqların rabitəli nitq vərdişlərinin inkişafında əmək dərslərinin rolu” | 2024 | 2025 | | |
| 3 | “Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəbdə əmək dərslərində mənimsənilmiş kommunikativ bacarıqların digər fənlərin tədrisində istifadəsi” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Xüsusi qayğıya ehtiyacı olan uşaqlara həndəsi fiqurların öyrədilməsi: bucaqlar, 3 bucaqlılar. 4 bucaqlılar və çoxbucaqlılar” | 2023 | 2024 | | Müəl. Bəşirova Sülhanə Siyaxbər qızı |
| 2 | “Xüsusi qayğıya ehtiyacı olan uşaqlarda müxtəlif üsullarla dərketmənin formalaşdırılması” | 2024 | 2025 | | |
| 3 | “Xüsusi qayğıya ehtiyacı olan uşaqların müxtəlif üsullarla dərketməsinin təşkili zamanı fəal təlim metdolarından və sinif strategiyalarından istifadə” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Epilepsiya zamanı emosional- iradi sferanın və davranışın pozulması” | 2023 | 2024 | | Müəl. Allahverdiyeva Günel Ədalət qızı |
| 2 | “Analizatorların fəaliyyətində patologiya olan uşaqlarda emosional-iradi sfera və davranış pozulması” | 2024 | 2025 | | |
| 3 | “Davranışında kənaraçıxmalar olan uşaqların psixoloji-pedaqoji problemləri və onların ailələri ilə psixokorreksiya işi” | 2025 | 2026 | | |
| | | | | | |
| 1 | “Oliqofreniyanın təzahür forması kimi – Demensiya” | 2023 | 2024 | | Müəl.İsrəfilova Afət Afər qızı |
| 2 | “Oliqofren və xüsusi qayğıya ehtiyacı olan uşaqların digər kateqoriyalarının valideynlərinin qarşılaşdığı çətinliklərin müqayisəli təhlili” | 2024 | 2025 | | |
| 3 | “Oliqofren uşaqların cinsi inkişaf mərhələləri və cinsi | 2025 | 2026 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | istismarın aradan qaldırılmasında cinsi tərbiyənin rolu” | | | | |
| | | | | | |
| 1 | “Atipik uşaqların təhsilalma prosesində məktəb seçiminin pedaqoji-psixoloji əsasları” | 2023 | 2024 | | Müəl.Kazımova Şəfa Eyvaz qızı |
